

# Prezidentimiz bizə böyük xoşbəxtlik bəxş etdi

***Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev rəssamdır. 2004-cü ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında boyakarlıq kafedrasının müdiri, professordur. 2010-ci ildən Azərbaycan Milli İncəsənət Muzeyinin direktorudur. Çingiz müəllim də bütün Azərbaycan ziyalıları kimi fərəh içərisindədir və sevincini oxucularımızla bölüşür.***



– Sinnimin bu vədəsində keçirdiyim hisslər ömrümün ən qürurlu anlarıdır. Ötən gecə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına müraciətini dinlədim. Müharibənin dayandırılması ilə bağlı bəyanat imzalandığını bildirən dövlət başçımız dedi: "Bu bəyanat tarixi əhəmiyyət kəsb edir. Bu bəyanat Ermənistanın kapitulyasiyası deməkdir. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat bizim şanlı Qələbəmizdir!"

Şanlı Azərbaycan Ordusu düşməni təslim olmağa məcbur etdi. Müharibələr bəşəriyyət üçün böyük bəladır. Azərbaycan çox müharibələr görüb. Qələbələrimiz də çox olub. Bizim xalqın qəhrəman oğulları torpaqlarımızın azadlığı uğrunda öz canlarından keçiblər. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edildi. Bu, xalqımızın tarixi qələbəsidir. Torpaqlarımızın işğaldan azad olunması ilə bağlı BMT-nin 4 qətnaməsi icra edilməmiş qalırdı. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, biz bu qətnamələri özümüz icra etdik.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərini dinlədikcə, milyonlarla azərbaycanlıdan biri kimi mənim də qəlbimdə qürur hissi oyanır. Çünki bu müraciətlərin hər kəlməsində bir bütövlük, yağı düşmənlə müharibədə həlledici qələbəyə dərin inam hissi var idi. Şükürlər olsun ki, biz qələbə çaldıq. Prezidentimizin bu sözlərinə diqqət yetirin: "Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!" Budur, əsl sərkərdə cürəti, cəsarəti.

Cənab Prezidentimizin qətiyyətli çıxışları Milli Ordumuzda da böyük ruh yüksəkliyi yaradırdı, əsgər və zabitlərimizi döyüşlərə daha əzmlə girməyə səsləyirdi.

Çingiz müəllim deyir ki, bu gün minlərlə mənim kimi sənətçilər ordusu Prezidentimizi dəstəkləyir və onunla fəxr edir. Döyüş mahnıları yazılır, gözəl rəsm əsərləri yaradılır. Bunlar hələ başlanğıcdır. Bilirsiniz, bu döyüşlər sənətçilərimizə nə qədər qəhrəmanlıq mövzusu verib.

İşğal altında olan torpaqlarımızın azad olunduğu anları televiziyadan diqqətlə izləyirdim. Bu xəbərləri Prezidentimizə verən döyüşçülərimizin çöhrəsindəki qürur məni valeh edirdi. Rəssam kimi deyə bilərəm ki, bizim rəssamlar azad edilən torpaqlarımız barədə vaxtilə möhtəşəm əsərlər yaratmışlar. Bu günlər mən də hərbçimizin obrazını yaratmaq barədə düşünürəm və Azərbaycan Ordusunun qəhrəmanlığı haqqında yaradacağım silsilə əsərlər arasında qəhrəman əsgərlərimizin portretləri də yer alacaq.

Mədəniyyət xadimləri və yaradıcı şəxslər müharibənin ilk günlərindən xalqa müraciət etmişdilər. Həmin müraciətdən bu sözləri xatırlatmaq istərdim: "Biz Azərbaycan mədəniyyətinin təmsilçiləri hazırda cəbhə bölgəsində, xalqımızın əzəli torpaqlarında Ermənistan tərəfinin təxribatlarının davam etdiyi bu çətin günlərdə Azərbaycan xalqını milli və dövlət maraqlarının qorunmasında həmrəylik nümayiş etdirməyə, rəsmi olmayan, dəqiqləşdirilməmiş məlumatlara inanmamağa, Ali Baş Komandanımızın, rəşadətli ordumuzun ətrafında sıx birləşməyə çağırırıq". Bu müraciəti digər sənət adamları kimi mən də imzalamışam.

Biz sənətçilər mədəniyyətimizin beşiyi olan Şuşanın işğaldan azad olunmasını səbirsizliklə gözləyirdik. Şuşa, əsl mənada, sənət məbədidir. Burada mədəniyyətimizin görkəmli nümayəndələri yetişiblər. Şuşa Natəvanın, Üzeyir bəyin, Mir Möhsün Nəvvabın, Bülbülün, Xan Şuşinski, general Mehmandarov kimi görkəmli şəxsiyyətlərin yurdudur. Cənab Prezident də dedi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Yarımçıq olmadı. Azərbaycanın tacı Şuşa işğaldan azad edildi. Bu, əslində, 28 il işğal altında qalan mədəniyyətimizin, incəsənətimizin azadlığa qovuşması demək idi. Mədəniyyət beşiyimiz Şuşa artıq öz sahibinə– Azərbaycan xalqına qaytarıldı.

Bizim minlərlə tarixi, mədəni abidələrimiz yerlə-yeksan edilib. Muzeylərimizin qiymətli eksponatları xarici ölkələrə satılıb. Biz onları bərpa edəcəyik, xarici ölkələrə satılmış eksponatları ölkəmizə qaytaracağıq. Artıq bu işlərə start verilmişdir.

Bizim muzeydə bu gün Azərbaycan xalqının qəhrəmanlıq tarixini əks etdirən onlayn sərgilər keçirilir. Burada nümayiş olunan əsərlər arasında Cavanşirin, Babəkin, Koroğlunun, Şah İsmayıl Xətainin, eləcə də Milli qəhrəmanlarımızın portretləri var.

İstedadlı rəssam yekunda cənab Prezidentin xalqa son müraciətindən bu sözləri diqqətə çatdırdı: "Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi, etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər".

***Qələmə aldı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 11 noyabr.- S.9.